

UOT 94 (479.24)

# XVIII–XX əsrin əvvəllərində Naxçıvan diyarında dabbağlıq sənətinin vəziyyəti

***Vidadi Muradov***
*tarix üzrə fəlsəfə doktoru, professor*
*e-mail: azerilme@gmail.com*

***Açar sözlər:*** *emalatxana, dabbağlıq, sənət, gön-dəri, istehsal, məmulat*

Naxçıvan diyarında geniş yayılmış sənət sahələrindən biri olan dabbağlıq çox qədim tarixə malik olub, öz başlanğıcını ibtidai icma quruluşu dövründən götürür. Arxeoloji qazıntılar göstərir ki, qədim insanlar hələ paleolit dövrünün müxtəlif mərhələlərində ovladıqları vəhşi heyvanların dərilərini daşdan və sümükdən hazırlanmış kəsici, qaşıyıcı, deşici, hamarlayıcı əmək alətlərinin köməyi ilə emal edərək onlardan çox sadə geyim və yataq ləvazimatları hazırlamışlar. Neolit dövründən başlayaraq maldarlığın müstəqil təsərrüfat sahəsinə çevrilməsi müxtəlif heyvanların dərisindən hazırlanmış geyim əşyalarının insanların məişətinə daha geniş miqyasda daxil olmasına gətirib çıxarmışdı. Qədim insanlar əldə etdikləri dərini qaşıma, sıyırma, hamarlama və s. kimi ibtidai üsullarla emal edir, onları ayrı-ayrı geyim növlərinin hazırlanması üçün yararlı hala salırdılar. Gön-dəri məmulatlarının qədim insanların məişətində möhkəm yet tutması tunc dövründən başlayaraq bu məşğuliyyətin müstəqil sənət sahəsinə çevrilməsinə, daha doğrusu, dabbağlıq sənətinin meydana gəlməsinə gətirib çıxardı (2, s.28; 12, s.35). Gön-dərilərin bəsit xalq üsulları ilə aşılanması tədricən



peşəkar dabbağlar tərəfindən tətbiq edilən daha mürəkkəb kimyəvi-mexaniki üsullarla əvəz edilirdi. Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıvan diyarında da dabbağlar bu üsulların köməyi ilə gön, sağrı, tumac, ətvi, müşkü, xəz-dəri və s. məmulatlar hazırlayırdılar (4, s.426-427).

Gön-dəri məmulatı istehsalını "Cənubi Qafqazın ən qədim sənət sahələrindən biri" adlandıran K.Xatisov onu aşağıdakı sahələrə bölür: "1) dərinin aşılanması; 2) dəridən məmulatlar istehsalı; 3) kürkçülük və emal edilmiş göndən məmulat istehsalı və 4) sərraclıq peşəsi" (23, s.351). Əldə olan məlumatların təhlili göstərir ki, Naxçıvan diyarında gön-dəri məmulatı istehsalı ilə bağlı olan bu sənət sahələrinin hər biri





geniş yayılmaqla yanaşı, həm də yüksək inkişaf səviyyəsinə çatmışdı. Təkcə o faktı göstərmək kifayətdir ki, XIX əsrin 30-cu illərində Azərbaycanın 5 şəhərində - Şamaxı, Ordubad, Naxçıvan, Nuxa və Şuşa şəhərlərində fəaliyyət göstərən 136 nəfər dabbağın 50 nəfəri, başqa sözlə desək, 1/3 hissəsi Naxçıvan və Ordubad şəhərlərinin payına düşürdü (14, s.19; 15, s.309, 343, 358-359, 384).

Gön-dəri məmulatı istehsalının ilkin mərhələsini təşkil edən dabbağlıq sənəti ilə peşəkar sənətkarlar – dabbağlar məşğul olurdular. Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan diyarında da dabbağlar xammal kimi iri və xırdabuynuzlu mal-qaranın: inək, camış, öküz, kəl, qoyun, keçi, at, ulaq, qatır və dəvənin gönündən, dərisindən istifadə edirdilər. Bölgədə maldarlığın müxtəlif sahələrinin geniş yayılması dabbağların xammalla yetərincə təmin olunmaları üçün əlverişli şərait yaradırdı. 1870-ci ilin məlumatına görə, Naxçıvan qəzasında 123079 baş qoyun-keçi, 23505 öküz və kəl, 26713 baş inək və camış, 2987 baş eşşək və qatır, 4317 baş dəvə saxlanılırdı (18, s.36). Sonrakı dövrlərdə bölgədə saxlanılan mal-qaranın sayı daha da artmışdı. Birinci Dünya müharibəsi ərəfəsinə aid statistik məlumatlardan aydın olur ki, həmin dövrdə Naxçıvanda saxlanılan iribuynuzlu mal-qaranın sayı 48-49 min başa, xırdabuynuzlu mal-qaranın sayı isə 172-173 min başa çatmışdı (6, s.44). Əldə olan məlumatlar göstərir ki, dabbağlar xammalı Naxçıvan və İrəvan qəzaları ilə yanaşı, İranın və Türkiyənin həmsərhəd bölgələrindən də tədarük edirdilər (7, s.174).



Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan diyarında da dabbağlıq sənəti daha çox şəhərlərdə cəmləşmişdi. Onlar, adətən, şəhər kənarında salınmış və su hövzəsinə yaxın olan küçələrdə yerləşir, əhali tərəfindən çox vaxt "dabbağxana" adlandırılırdı. Dabbağxanaların şəhər kənarında yerləşməsi heç də təsadüfi deyildi; bu emalatxanalarda suya tələbatın böyük olması və emal

prosesində ətrafa pis qoxuların yayılması ilə bağlı idi. Tədqiqatçı E.Qarayev yazır ki, İrəvan şəhərinin gön-dəri aşılayan emalatxanaları şəhərin kənarında, Zəngi çayının sahilində yerləşirdi (3, s.242). Lakin Ordubad şəhəri bu sahədə istisnalıq təşkil edirdi. Belə ki, burada hələ xanlıqlar dövründən fəaliyyət göstərən 12 dabbağ emalatxanası şəhərin mərkəzi küçələrindən birində salınmışdı (1, v.13; 5, s.104; 19, s.857). XIX əsrin 30-cu illərində tərtib edilmiş arxiv sənədlərindən birində göstərilir ki, "hökumətin bağışlanmaz səhvi ucbatından zavodlar (dabbağxanalar - V.M.) şəhərin ortasında, düz çayın kənarında tikilmişdir ki, bunun nəticəsində də bağlara axan su pis keyfiyyətli olub sağlamlıq üçün zərərlidir" (1, v.13).

Dabbağ emalatxanaları istər yerləşdikləri binaların quruluşuna, istərsə də iş prinsiplərinə görə Azərbaycanın bütün bölgələri ilə, demək olar ki, eynilik təşkil edirdi. XIX əsrin sonlarında Cənubi Qafqazda sənətkarlığın vəziyyətini tədqiq etmiş K.Xatisov belə yazırdı: "Gön-dəri "zavodları" adətən evlərin yanındakı saraylarda, bəzən isə yaxınlıqdan axan çayların kənarında tikilmiş kiçik binalarda yerləşirlər. Hər dəri-gön "zavodunda" (onun sahibi olan) ustadan başqa 3-4 nəfər usta köməkçisi və 1-2 nəfər şagird işləyir. Usta köməkçiləri ayda 3-4 rubl alırlar. İstehsalla məşğul olanların sayı "zavoddakı" çənlərin sayı ilə müəyyənləşir: hər çənin yanında bir nəfər işçi olur. İşlər, adətən yazın əvvəllərindən başlayıb payızın sonlarına qədər davam edir. Qış zamanı çəndəki su donduğundan "zavodda" işlər dayandırılır" (23, s.352).



Dabbağ emalatxanalarının istehsal gücü onların malik olduqları çənlərin sayı və tutumu ilə müəyyənləşirdi. Kiçik dabbağxanalarda çənlərin sayı 1-2, orta və iri dabbağxanalarda isə 5-6-ya çatırdı. Əksər hallarda qoz ağacının kötüyündən hazırlanmış çənlər öz tutumlarına görə fərqlənirdilər. Kiçikölçülü çənlərdə bir dəfəyə 20, orta ölçülü çənlərdə 30, iri ölçülü çənlərdə isə 40 dəri emal edilirdi (4, s.428; 23,s.354).

Tədarük edilmiş gön və dərilərin emalı ilə dabbağlarla yanaşı, şağrıcərdlər, papaqçılar və kürkçülər də məşğul olurdu. Təyinatından asılı olaraq istehsal edilmiş gön-dəri məmulatı gön, sağrı, müşkü, tumac, kosala kimi növlərə ayrılırdı. Məmulatların ilkin







emalı prosesində əhəng, şora, zağ, mis ovuntusu, dəniz duzu, sarağan yarpağı, cır nar, sumaq yarpağı, kəpək, sağrı tumu, quyruq yağı kimi vasitələrdən istifadə edilirdi. Tədarük edilmiş gön əvvəlcə islaqda saxlanılır, sonra isə əhəng və kəpək vasitəsilə tük və tət qalığından təmizlənirdi. Bu əməliyyat başa çatdıqdan sonra məmulat cır nar aşısında bir neçə dəfə aşılanaraq yuyulur və hazır vəziyyətə gətirilirdi. Bu məhsulun əsas alıcıları başmaqçılar, çəkməçilər və sərraclar olurdu (4, s.428-430).

Ayaqqabı istehsalı üçün əsas xammal olan müşkü və tumac qoyun-keçi dərisindən aşılanıb hazırlanırdı. Gönün aşılanması kimi, qoyun və keçi dərilərinin aşılanması zamanı da müxtəlif aşı maddələrindən və vasitələrindən istifadə olunurdu. Aşılanma prosesinin başa çatmasından sonrakı mərhələni məmulatın boyanması təşkil edirdi. Müşkün və tumacın boyanması zamanı qırmızı, sarı, yaşıl, qara və s. kimi rənglərdən istifadə edilirdi. Bəzi hallarda tumacın üzərinə gül formasında naxışlar da salınırdı (4, s.432).

Əldə olan statistik məlumatlar göstərir ki, öyrənilən dövrdə Naxçıvan və Ordubad şəhərləri Azərbaycanda dabbağlıq sənətinin ən mühüm mərkəzlərindən olmuşdur. Bir qədər əvvəl qeyd etdik ki, XIX əsrin 30-cu illərinin əvvəllərində Naxçıvan şəhərində 22 nəfər dabbağ fəaliyyət göstərirdi. Akademik Ə.S.Sumbatzadənin bütün XIX əsr ərzində bu sənətin Azərbaycanda güclü inkişaf meylinə malik olması fikrini (22, s.94) bütünlüklə Naxçıvan şəhərinə də aid etmək olar. Artıq 1865-ci ildə Naxçıvan şəhərində çalışan dabbağların sayı 33 nəfərə çatmışdı (20, cəd. 5).

Naxçıvan şəhərində və dairəsində dabbağlıq sənətinin geniş yayıldığını və yüksək inkişaf səviyyəsinə çatdığını "Naxçıvan əyalətinin statistik təsviri"ndəki xanlıqlar dövrünün sonlarına aid məlumatlar da təsdiq edir. Bu məlumatlardan aydın olur ki, dabbağlıq sənəti ilə məşğul olanlardan toplanan vergilər xəzinənin əsas gəlir mənbələrindən birini təşkil edirdi. Belə ki, xanlıqlar dövründə dövlət gön-dəri məmulatlarının həm istehsalına, həm də satışına görə xüsusi vergilər müəyyənləşdirmiş və onların toplanmasını ayrı-ayrı şəxslərə iltizama vermişdi. Hələ 1823-cü ildə şahzadə Abbas Mirzənin əmri ilə hazırlanmış iltizam maddələri haqqındakı cədvəllə bütün Naxçıvan dairəsi üzrə gön-dəri məmulatı istehsalına görə gümüş pulla 260 rubl məbləğində vergi toplanılması müəyyənləşdirilmişdi (10, s.180). Həmin qaydalara görə, dabbağ emal edib satışa çıxardığı hər ədəd camış dərisinə görə gümüş pulla 70 qəpik, öküz dərisinə görə 35 qəpik, qoyun dərisinə görə isə 10 qəpik həcmində vergi ödəməli idi (10, s.112). Oxşar vəziyyət Ordubad dairəsində də müşahidə edilirdi. Burada gön-dəri məmulatlarının emalına və satışına görə illik iltizam maddəsinin həcmi gümüş pulla 200 rubl (50 tümən) müəyyənləşdirilmişdi. İltizamçı hər camış dərisinə görə gümüş pulla 60 qəpik, hər öküz dərisinə görə isə 30 qəpik həcmində vergi toplayırdı (10, s.211).

Ordubad şəhərini Naxçıvan diyarında dabbağlıq sənətinin mühüm mərkəzlərindən biri kimi xarakterizə etmək olar. Əldə olan mənbə materialları əsasında tərtib edilmiş aşağıdakı cədvəl (8, cəd. 6;9, s.669; 10, s.196; 11, s.413; 14, s.120; 15, s.343, 354, 358; 16,





s.90; 17, s.42, 43, 46; 19, s.482, 484; 20, s.54; 22, s.206, 295, 437) XIX-XX əsrin əvvəllərində bu şəhərdə fəaliyyət göstərmiş dabbağ emalatxanaları və burada çalışan işçilərin sayı və istehsal etdikləri məhsulun həcmi haqqında müəyyən təsəvvür yaradır:

| İllər | 1832 | 1858 | 1867 | 1869 | 1894 | 1896 | 1897 | 1899 | 1900 | 1901 | 1903 | 1904 | 1910 | 1914 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Emalatxanaların sayı | 6 | 10 | 10 | 13 | 2 | 2 | 15 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 1 |
| İşçilərin sayı | - | - | 24 | 30 | 11 | 12 | - | 16 | 20 | 20 | 20 | 26 | 10 | 4 |
| İllik məhsul istehsalı (rublla) | | 4460 | 5000 | 7000 | 900 | 1000 | 1000 | 1200 | 2600 | 2600 | 2600 | 3000 | 800 | 2113 |

Cədvəldə verilən statistik məlumatlardan aydın olur ki, XIX əsrin 30-cu illərindən 1914-cü ilə qədərki dövrdə Ordubad şəhərində dabbağlıq sənətinin inkişafı heç də həmişə yüksələn xətlə getməmişdir. Yüksələn xətlə inkişaf yalnız XIX əsrin 60-cı illərinin sonlarına qədərki dövrü əhatə edir. Bu müddət ərzində şəhərdə fəaliyyət göstərən dabbağ emalatxanalarının sayı 6-dan 13-ə, onlarda çalışan işçilərin sayı isə 30 nəfərə qədər yüksəlmişdi. İstehsal edilmiş məhsulun həcmində də xeyli artım müşahidə edilirdi. Belə ki, 1858-ci ildə şəhərdə 4460 rubl dəyərində dabbağ məmulatı istehsal edilmişdisə, 1869-cu ildə onun həcmi artaraq 7000 rubla çatmışdı.

1870-1892-ci illəri əhatə edən statistik məlumatlar olmadığından, həmin illərdə Ordubad şəhərində dabbağlıq sənətinin vəziyyəti haqqında konkret fikir söyləmək çətindir. Cədvəldə XIX əsrin sonu – XX əsrin əvvəllərinə aid verilmiş statistik məlumatlar isə Ordubad şəhərində bu sənətin, XIX əsrin 50-60-cı illəri ilə müqayisədə, xeyli geriləməsindən xəbər verir. XIX əsrin 90-cı illərində şəhərdə 10 nəfər işçisi olan cəmi iki dabbağ emalatxanası fəaliyyət göstərirdi. Bu emalatxanalarda istehsal edilən məhsulun ümumi dəyəri isə 800-1000 rubl arasında tərəddüd edirdi. 1900-1904-cü illərdə Ordubad şəhərində fəaliyyət göstərən dabbağ emalatxanalarının sayı dəyişməz qalsa da, işçilərin sayında və istehsal edilən məhsulun həcmində müəyyən qədər dəyişikliklər baş vermişdi. Daha doğrusu, göstərilən illərdə emalatxanalarda çalışan işçilərin sayı 20-26 nəfər, istehsal edilmiş məhsulun həcmi isə 2600-3000 min rubl təşkil etmişdi.

Naxçıvan şəhərində olduğu kimi, Ordubadda da istehsal edilən dabbağ məmulatı gön, sağrı, müşkü, tumac, kosala və s.-dən ibarət idi. Bununla belə, Ordubad şəhərində başmaqçılıq və çəkməçilik sənətləri daha çox inkişaf etdiyindən, istehsal edilən dabbağ məmulatı arasında sağrı və tumac üstünlük təşkil edirdi. Aşılanma əməliyyatı başa çatdıqdan sonra bu məmulat boyaq talaşası, mis ovuntusu, naşatır, sarağan yarpağı, qara zağ və s. kimi vasitələrin köməyi ilə qara, qırmızı, çəhrayı, yaşıl, sarı rənglərə boyadılırdı (4, s.434-435; 21, s.234).



Ordubad dabbağxanalarının istehsal etdikləri məhsulun əsas alıcıları elə həmin şəhərdə fəaliyyət göstərən başmaqçılar və çəkməçilər idi. Məhz xammalla təchizatın yüksək səviyyədə olmasının nəticəsi idi ki, bu şəhərdə fəaliyyət göstərən onlarla ayaqqabı ustası əhalinin müxtəlif növ başmaqlara və çəkmələrə olan tələbatını tamamilə ödəmək imkanına malik idi. Bununla belə, Ordubadda istehsal edilmiş dabbağ məmulatının bir hissəsinin qonşu İrəvan və Aleksandropol qəzalarında, İranda və digər yerlərdə satılması haqqında da məlumat var (20, s.54; 11, s.413).



## Ədəbiyyat:


1. Azərbaycan DTA, f.24,siy.1, iş 372
2. Azərbaycan tarixi. 3 cilddə, I cild, Bakı: 1961
3. Qarayev E. İrəvan xanlığı (1728-1828). Bakı: 2010
4. Mustafayev A.N. Dabbağlıq. //Azərbaycan etnoqrafiyası. 3 cilddə, I c., Bakı: 2007
5. Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı: 2002
6. Rəhimov Y. I Rus inqilabından I Dünya müharibəsinə qədər Naxçıvanda sosial-iqtisadi vəziyyət. // AMEA Naxçıvan bölməsi. Xəbərlər, İctimai və humanitar elmlər seriyası. 2013, № 3
7. Адонц М. А. Экономическое развитие Армении в XIX веке. Ереван: 1957
8. Ваидова Х. История города Ордубад. Баку: 2007
9. Географическо-статистический словарь Российской империи. т.3, СПб., 1867
10. Григорев В. Статистическое описание Нахичеванской провинции. СПб., 1833
11. Кавказский календарь на 1868 г. Тифлис: 1867
12. Нариманов И. Т. Культура древнего земледельческо-скотоводческого населения Азербайджана. Автореф. док. диссер.Тбилиси: 1982
13. Обзор Эриванской губернии за 1899 г. Эриван: 1900
14. ОРВЗК, ч. III, СПб., 1836
15. ОРВЗК, ч.IV, СПб., 1836
16. Памятная книжка Эриванской губернии на 1904 г., Эриван: 1904
17. Памятная книжка Эриванской губернии на 1914 г. Эриван: 1914
18. Шахвердиев З. Аграрные отношения и положение крестьян в Азербайджане в 70-90-е гг. XIX века. АДК, Баку: 1984
19. Шопен И. Исторический памятник Армянской области в эпохи ее присоединения к Российской империи. СПб. 1852
20. Сборник статистических сведений о Кавказе. т. I, СПб., 1869, Cədvəl 5.
21. Сборник статистических сведений о Кавказе. т. VII, Тифлис: 1886
22. Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. Баку: 1964
23. Хатисов К.И. Кустарные промыслы Закавказского края. // Отчеты и исследования по кустарной промышленности в России. ч. II, СПб., 1894



***Vidadi Muradov***
*PhD in History,*
*professor*


### *Leather dressing in Nakhchivan province (from 18th century to early 20th century)*


***Key words:*** *workshop, leather dressing, art, leather, production, products*


### *Summary*


The abundance of raw materials and high demand for leather products have resulted in favorable conditions for the development of leather dressing in Nakhchivan province since ancient times. From the 18th centurty to the early 20th century, tens of leather dressers (tanners) processed pelt, sagri, tumaj, etvi mushku, and fur. Products were exported to neighboring Iravan and Alexandropol districts, and Iran.



***Видади Мурадов***
*доктор философии по истории,*
*профессор*


### *Состояние кожевенного ремесла в Нахчыванском крае в XVIII– начале XX веков*


***Ключевые слова:*** *мастерская, кожевенное ремесло, производство, выделка шкур, изделие*


### *Резюме*


Изобилие сырья и высокая потребность в кожаных изделиях еще с древних времен создали благоприятные условия для развития кожевенного дела в Нахчыванском крае. В XVIII–началеXX веков в городах Нахчыван и Ордубад действовали десятки кожевенных производств, занятых выделкой толстых шкур, изготовлением изделий из шагрени, сафьяна, оленьей шкуры, пушнины. Изделия нахчыванских кожевников удовлетворяли не только местные потребности, но и вывозились в соседние Иреван и Александрополь, а также в Иран.